ədalət 2019.- 23-24 avqust.- S.9.



**Meyxoş Abdullah**

# Su şırıltısı...

(hekayə)

(əvvəli ötən saylarımızda)

Darvazadan içəri girəndə qapı ağzında çoxlu kitab bağlamaları, məişət, geyim əşyaları və tablolar qalaqlanmışdı. İlk ürəymə gələn bu oldu ki, Aliyə xanım, deyəsən, harasa köçür. Amma onunla şərtləşdiyimizə görə şəxsi işləri barədə ondan heç nə soruşmamalıydım.

Evə keçdik. Otaqlarda da bağlamalar yığılıb qalmışdı. Yenə bu barədə ondan heç nə soruşmadım.

Məni iş otağına dəvət etdi.

- Bura gəlin, sizinlə vacib söhbətim var, - dedi.

Aliyə xanım iş otağında olan kitab dolabının siyirməsini çəkdi və oradan iki kağız qovluq çıxartdı. Sonra qovluqlardan birini mənim qarşıma qoyub; - aç, oxu! - dedi.

Özü isə mənimlə üzbəüz oturdu və əlini çənəsinə qoyub nəzərlərini üzümə dikdi.

Heç nə başa düşmədim. Qovluğu açdım. İlk gözümə dəyən, meşənin içərisində, çay qırağında olan gözəl bir ev şəkli oldu. Ev çox gözəl idi. Hər tərəf meşəlik, ağaclar yam-yaşıl. Uzaqdan sıralanıb gedən sil-silə dağlar bu mənzərəyə özgə bir yaraşıq verirdi. Adam bir anlığa özünü bu füsunkar gözəlliyin qoynunda hiss edirdi. Meşənin içərisində inşa edilmiş bu ev məxsusi bir ev idi. Kimin üçünsə xüsusi zövqlə tikilmişdi.

- Gözəl evdir dedim, çox gözəldir. Adamın belə bir evi ola, - deyə, pıçıldadım.

- Qovluğun içində bir yazı var, indi zəhmət olmasa açın, o yazını oxuyun! - deyə, Aliyə xanım dilləndi.

Şəkli kənara qoyub, yazını oxumağa başladım. Orada belə yazılmışdı: - "Əzizim, Aliyə xanım, artıq mən çox qocalmışam, demək olar ki, ömrümün son anlarını yaşayıram. Lənətə gəlmiş bu xəstəlik mənim canımı almaqdadır. Ömrümün sona çatdığını hiss edirəm. Çox az qalıb ömrümə, bəlkə də sanlı günlər... Sənin belə bir ev arzuladığını bilirdim. Xatırlayırsan, orta məktəbin sonuncu sinifində oxuyanda sənin maraqla baxdığın və: - kaş, gələcəkdə belə bir evim olaydı? - dediyin o şəkildəki evin neçə illərdir ki, inşasıyla məşğulam. Artıq ev tikilib tamamlanıbdır. Evin bütün sənədləri hazırdır və sənin adına yazılıbdır. Vəsiyyət etmişəm ki, mən öləndən sonra bu sənədlər sənə çatdırılsın. Çox xahiş edirəm gəlib evinə sahib çıxasan. Qoy, mənim də ruhum şad olsun. Ömrünün sonuna kimi səni qəlbən sevən insan!"

Məktubu oxuyandan sonra gözlərimi Aliyə xanımın gözlərinin içinə dikdim. O ağlayırdı... Hiss etdim ki, suallarım cavabsız qalacaqdır. Ona görə də, ondan bir şey soruşmağa cəsarət etmirdim. Amma maraq mənim içimi qurd kimi gəmirirdi. Özümü heç cür ələ ala bilmirdim. Odur ki, soruşdum:

- Aliyə xanım, bu adam kimdir?

O gözlərindən axan gözyaşlarını silərək üzümə baxdı. Bu baxışlar bir qədər soyuq baxışlar idi.

- Xahiş edirəm, mümkünsə deyin, bu adam kimdir və sizə niyə görə bu evi bağışlayır? - deyə, təkidlə soruşdum.

O əllərini qoynuna qoyub, üzünü pəncərəyə tərəf çevirdi və ata səslə:

- Həmin adam mənim orta məktəb müəllimim idi. Məni sevirmiş. Bu barədə mən heç vaxt bilməmişəm. O neçə illər bu sevgisini sirr olaraq ürəyində saxlayıbdır. Hətta, mənə görə ailə də qurmayıbdır...

Əsmər xanım bu sözləri deyərkən çiyinləri titrədi. Hiss etdim ki, o ağlayır...

Ona təsəlli üçün nə isə bir söz demək istədim. Əlini havada yelləyib, etirazını bildirdi.

- İkinci qovluğu açın, oxuyun, zəhmət olmasa, - dedi.

Əllərim titrəyə-titrəyə ikinci qovluğu açdım. Orada da bir ev şəkili vardı. Amma bu şəkil birinci qovluğdakı şəkildən fərqli olaraq, əllə çəkilmişdi. Gözəl rəsm əsəriydi. Dəniz kənarındakı bağ evlərindən biri idi. Eynən, Aliyə xanımın yaşadığı evə bənzəyirdi.

Bir az aralıda isə mavi dəniz görünürdü. Dənizin sahilində isə bir kişi şəkli çəkilmişdi. Kişi dənizi seyr edirdi. Diqqətlə baxanda, o şəklin özümə oxşadığını yəqinləşdirdim. Ani olaraq gözlərmi şəkildən ayırıb Aliyə xanıma baxdım. O mənə baxıb gülümsəyirdi.

- Tanıdınmı onu?! - soruşdu.

- Hə, bu ki, mənə oxşayır! - dedim.

- Hə, bu sizsiniz! Bundan sonra hər gün dəniz sahilinə gedib, dənizi doyunca seyr edə bilərsiniz. Ürəyiniz istədiyi qədər dənizlə söhbət etməyə vaxtınız olacaq, cənab yazıçı.

Nə baş verdiyni, doğrusu, anlaya bilmədiymdən, yerimdəcə donub qalmışdım. Mənə elə gəlirdi ki, yuxu görürəm.

- Başa düşmədim? - deyə, təəccüblə Aliyə xanımdan soruşdum.

- Başa düşmədinsə, onda orada olan yazını da aç, oxu! - dedi.

Kağızı açıb oxudum. Yazılmışdı: - "Hörmətli, yazıçım, mən sizin xatrinizi dünyalar qədər istəyirəm. Sizin dəniz sevginiz möhtəşəmdir. Mən sizi dənizdən ayırmaq istəmirəm. Çünki sevginin nə olduğunu mən yaxşı bilirəm... Həm də, ayrılığın və həsrətin də nə olduğunu bu həyat mənə yaxşı başa salıbdır. Ona görə də, bu evimi sizin adınıza sənədləşdirmişəm. Qalın burda, yazın, yaradın... Dəniz sevginizdən də əl çəkməyin. Tanrı hər ikimizə belə bir möhtəşəm sevgi qismət edibdir. Bu çox böyük xoşbəxtlikdir, anlayırsınızmı? Bu ilahi sevgidir, bu ruh sevgisidir, bunu hər insan yaşaya bilmir!" - deyə Aliyə xanım kədərli-kədərli üzümə baxdı..

Əlimdə kağız donub qalmışdım. Nə deyəcəyimi, necə hərəkət edəcəyimi özüm də bilmirdim. Sanki yuxuda idim. Bu yuxudan da ayıla bilmirdim.

Bir addım ona tərəf atdım. Yaman kövrəlmişdim... Bir himə bənddim ki, hönkürüm. Əllərimi ona tərəf uzatdım. Əllərini ovcumun içinə qoydu. Bir addımlıqda dayanmışdıq. Onun nəfəsini sir-sifətimdə hiss edirdim. O da dolmuşdu. Gözlərindən yaş süzülürdü...

Bu dəhşətli bir an idi, mənim üçün. Sanki havam çatmırdı, boğulurdum. Birdən, nə isə yadıma düşdü. Çoxdan axtardığım və arzusunda olduğum bir şeyi tapmış kimi sevindim.

Bu halımı o da hiss etdiyindən soruşdu:

- Nə oldu sizə?!

- Yadınızdadır, Aliyə xanım? - dedim. Bir vaxt məndən soruşmuşdunuz ki, mənim səsim nəyə bənzəyir? Xatırlayırsınızmı?!

O, gözlərini geniş açaraq, baxışlarını üzümə dikdi.

- Hə, əlbəttə, xatirimdədir. Təyyarədə olanda sizdən soruşdum ki, mənim səsim nəyə bənzəyir? Dediniz ki, öyrənib deyərəm. - Deyiin, öyrəndinizmi?!

Mən onun qollarından tutub, ehmalca özümə tərəf çəkdim. Etiraz etmədi. Onunla o qədər yaxın dayanmışdıq ki, gözlərimiz ixtiyarsız olaraq qapanmaq üzrəydi. Gözlər ən ülvi hisslərin qovuşduğu vaxt, bir də ölüm ayağında belə qapanırlar... Ürəyinin döyüntüsünü hiss edirdim. Bədəni yarpaq kimi əsirdi. Onun ipək saçları barmaqlarımın arasında şırımlandıqca, köksümə bərk-bərk sığınan bir qadın bədəninin ləzzətini hiss edirdim. Dodaqlarının dəniz suyu kimi duzlu tamı bədənimə yayıldıqa özümü unudurdum. Sanki özümü dəniz sahilindəki o tənha və bulud tək dolmuş, kövrək halımda olduğum kimi hiss edirdim bu an.

O isə, ehmalca əllərini ciyinlərimə toxunduraraq, sanki məni yuxudan ayıldırmış kimi pıçıldayırdı:

- Ey, nə oldu sizə? Ayılın!.. Səsimi deyirəm, mənim səsim nəyə bənzəyir?!

Yaman dolmuşdum... Hıçqırığım içimi titrədirdi. Bir udum qəhər isə boğazımda ilişib qalmışdı.

O isə gözlərini gözlərimdən çəkməyərək:

- Hə, deyin, mənim üçün çox maraqlıdır, xahiş edirəm...

- Sizin səsiniz Su şırıltısına bənzəyir, Aliyə xanım...

Onun sifəti allandı, dodaqları qaçdı.

- Hə, doğru deyirsiniz. Yəqin, o meşədəki evin qarşısından axan çayın səsi höpub səsimə, - deyə xəfifcə gülümsədi.

- Hə, əlbəttə, bu səs dənizin səsinə oxşamır! - deyə, özümü saxlaya bilməyib hönkürdüm.